# *Hadi Rəcəbli:* Cənab İlham Əliyevin inamlı qələbəsi Azərbaycan xalqının uğurudur

Aprelin 11-də Azərbaycan seçicisi taleyüklü seçimini etdi. Sonrakı 7 il üçün öz prezidentini seçən xalqımız bir daha siyasi sabitliyə, tərəqqi və inkişafa aparan yolu dəstəklədi, öz xoşbəxt gələcəyinə səs verdi. Seçicilərin 86 faizinin səsini qazanan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyev inamlı qələbə münasibətilə Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda keçirilən konsert proqramındakı çıxışı zamanı bu fikirləri önə çəkdi: "Mənim fəaliyyətimdə Azərbaycan xalqının dəstəyi əsas rol oynayır. Həmişə çalışmışam ki, xalqa sədaqətlə, ləyaqətlə xidmət edim. Azərbaycan xalqı dünən öz seçimini etdi. Azərbaycan xalqı dünən bir daha bizim siyasətimizə öz səsini verdi. Bir daha sabitliyə, inkişafa, tərəqqiyə, müstəqil siyasətimizə səs verdi. Sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu gün ən yüksək zirvələrə çatıbdır. Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Azərbaycan dünya miqyasında çox böyük hörmətə layiq bir ölkədir. Daxili vəziyyətimiz sabitdir. Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır. Bütün azadlıqlar təmin olunur. Dünən keçirilmiş prezident seçkiləri bir daha onu göstərir ki, Azərbaycanda bütün azadlıqlar təmin olunur, Azərbaycan demokratiya yolu ilə uğurla gedir. Açıq, şəffaf, ədalətli şəkildə keçirilmiş seçkilər Azərbaycan xalqının iradəsini əks etdirmişdir. Seçkilərdə mənə göstərilən dəstək məni daha da ruhlandırır, daha böyük güc verir. Seçkilərdə xalqımız həm görülən işlərə, real nəticələrə, eyni zamanda, bizim gələcəyimizə, xoşbəxt gələcəyimizə səs vermişdir. Əminəm ki, bundan sonra da ölkəmiz uğurla inkişaf edəcək. Bundan sonra da Azərbaycan xalqı sabitlik, təhlükəsizlik şəraitində yaşayacaq".



Həm seçkiöncəsi təbliğat-təşviqat kampaniyasında, həm də seçkisonrası durumun qiymətləndirilməsi proseslərində fəal iştirak edən "İki sahil" qəzeti və eyniadlı internet televiziyası müxtəlif sahələrin mütəxəssisləri ilə vaxtaşırı mövzu ilə bağlı silsilə müsahibələr və reportajlar təqdim edir. "İki sahil" internet televiziyasının seçki prosesinin dəyərləndirilməsi ilə bağlı suallarını Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, siyasi elmlər doktoru, professor Hadi Rəcəbli cavablandırıb.

### Azərbaycanın qazandığı ən böyük uğur: yüksək səviyyəli hakimiyyət-xalq vəhdəti

H.Rəcəbli ilk növbədə prezident seçkilərində qələbə münasibətilə cənab İlham Əliyevi və Azərbaycan xalqını təbrik edib: "11 aprel tarixində keçirilən prezident seçkilərində cənab İlham Əliyevin inamlı qələbəsi bütövlükdə Azərbaycan xalqının qələbəsidir, növbəti uğurudur və bunun xeyrini bizim xalqımız tezliklə görəcək. Azərbaycanın qazandığı ən böyük uğur hakimiyyət-xalq vəhdətinin yüksək səviyyədə olmasıdır. Bu vəhdətin sayəsində xalqımız möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında yumruq kimi birləşib. Ürəkdən inanıram ki, bu vahid güc dünyanın hər yerinə səs salacaq və Azərbaycan dünyanın ən nüfuzlu, ən hörmətli dövlətlərindən birinə çevriləcək".

Milli Məclisin deputatı Hadi Rəcəbli seçki proseslərindən söz açaraq Azərbaycan xalqının prezident seçkilərinə səfərbər olduğunu diqqətə çatdırıb: "Seçki dövründə 7 rayonda görüşlər keçirdik. Görüşlər qələbəlik şəraitində keçirdi. İnsanlar həmin görüşlərə böyük sevinc hissi ilə qatılırdılar və onlar seçkiyə sanki toy-bayrama gedəcəkləri kimi yollanacaqlarını deyirdilər. Partiyamızın keçirdiyi mitinqlərdə bəzən seçicilər bizi kənara çəkib deyirdilər ki, biz artıq öz seçimimizi etmişik, səsimizi Azərbaycan xalqı qarşısında verdiyi bütün vədləri reallaşdıran cənab İlham Əliyevə verəcəyik. Seçkiöncəsi görüşlərdəki qələbəliyi mən 11 apreldə seçki məntəqələrində də gördüm. İnsanlar ailəsi ilə birgə səsverməyə gəlirdilər.

Mən Xətai rayonunda 18 məntəqədə müşahidəçi qismində iştirak etdim. Burada həm seçicilər, həm də beynəlxalq təşkilatların seçkiyə münasibətini yaxından müşahidə etmək imkanım oldu. Ümumi qənaətim bundan ibarətdir ki, Azərbaycanda çox demokratik şəkildə seçki keçirildi. Xalq seçkilərə gəldi, səsvermə hüququndan istifadə edərək öz Prezidentini seçdi. Ailəmlə birlikdə Nəsimi rayonu 152 saylı məktəbdə cənab İlham Əliyevə səs verdik. Düşünürəm ki, Azərbaycan xalqının seçimi Azərbaycan xalqının uğurudur. Bu uğur Azərbaycanın gələcəyini müəyyən edir. Azərbaycan xalqı yeddi il müddətinə öz gələcəyini etibarlı əllərə tapşırdı və öz xoşbəxt, rifahlı gələcəyinə səs verdi. Yeni Azərbaycan Partiyası kəmiyyət və keyfiyyətcə ölkəmizdə aparıcı partiyadır. Seçkilərin ilkin nəticəsi bunu bir daha sübut etdi. Xalqımız Azərbaycana xidmət edən şəxsiyyəti- İlham Əliyevi öz prezidenti seçdi. Mən cənab İlham Əliyevi ürəkdən təbrik edirəm. Əminəm ki, partiyamızın namizədi cənab İlham Əliyev ölkəmizi daha gözəl gələcəyə aparacaq".

### Dünyəvi liderin rəhbərliyi ilə həyata keçirilən böyük işlər

"Xalqımız yaxşı dərk edir ki, Azərbaycana sabitlik bəxş edən, ölkəsinin gələcəyini düşünən bir lider var- o da İlham Əliyevdir. Görün, cənab İlham Əliyev necə uzaqgörənliklə, nə qədər ustalıqla və siyasi səriştə nümayiş etdirərək Azərbaycanı dünyadakı siyasi kataklizmlərdən, iqtisadi böhrandan qoruya bilib. Bu gün dünyanın nüfuzlu dövlət başçıları Azərbaycana gəlir, Amerika və Rusiya arasında olan hansısa gərginliyin çözülməsi ilə bağlı ölkəmizdə danışıqlar təşkil olunur. Bunun kökündə duran səbəb nədir? Təbii ki, İlham Əliyevin şəxsi nüfuzu, bacarığı, ağlı, zəkası, çevik siyasəti. Digər məqama diqqət yetirək. Azərbaycanda beynəlxalq tədbirlərin keçirilməsinin səbəbi buradakı sabitlik, əmin-amanlıq, qonaqpərvərlik, Azərbaycanın qonaq qəbul etmək iqtidarında olmasıdır. İnvestorların cəlb olunması, Azərbaycana yatırım etmək istəyən xarici sahibkarların sayının coxalması, ölkəmizdə məşğulluğun artması, nəqliyyat sferasının inkişafı, turist potensialının 4 dəfə artması -bütün bunlar dünyəvi liderin rəhbərliyi ilə həyata keçirilir".

### Cənab İlham Əliyev respublikamızda sabitliyin qorunub saxlanmasının qarantıdır

Komitə sədri qarşıdakı illər üçün hədəfləri vurğulayıb: "Ən başlıcası sabitliyin qorunub saxlanmasıdır. Cənab İlham Əliyev sonrakı 7 il üçün respublikamızda sabitliyin qorunub saxlanmasının qarantıdır. Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi, iqtisadiyyatın və aqrar bölmənin inkişafı, əməktutumlu iş yerlərinin yaradılması, Azərbaycanda sosial müdafiənin gücləndirilməsi dövlətin gələcək siyasi xəttinin prioritet istiqamətlərindəndir".

Şəmsiyyə Əliqızı
Sevinc Mürvətqızı
*"İki sahil"*